HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 FEVRAL 2019-CU İL/ №003 (83)

# Yeni YOL

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

2



BƏS O ƏJDAHADAN NİYƏ BİZDƏ YOXDU?

3



BƏS BİZ NƏ ÜÇÜN YAŞAYIRIQ?

4



AYGÜL İSAYEVA YAZIR

7



PARLAMENTİN DEPUTATLARI QARABAĞ SEPARATÇISINA BÜSTÜN QOYULMASINI QINAYIBLAR

## PARLAMENT BİNASI QARŞISINDA MİXAİL AVAKYANIN BÜSTÜNÜN GÖTÜRÜLMƏSİ TƏLƏBİ İLƏ AKSİYA KEÇİRİLİB

Favralın 8-i Tbilisidəki parlament binasının qarşısında Axalkalakidə erməni hərbçisi Mixail Avakyanın büstünün qoyulmasına etiraz olaraq aksiya keçirilib. Aksiyada azərbaycanlı və gürcü ictimaiyyət nümayəndələri birgə iştirak ediblər. Aksiya iştirakçıları Gürcüstanda separatçının abidəsinin qoyulmasını pisləyərək bu halın yolverilməz olduğunu deyiblər və büstün götürülməsini tələb ediblər.

Aksiyada azərbaycanlı gənclər, tələbələr, iş adamları, gürcü gənclər, politoloqlar, Abxaziya müharibəsinin veteranları da iştirak ediblər.

Etirazçılar əllərində Azərbaycan və Gürcüstan bayraqlarını tutublar. Onlar bildiriblər ki, Mixail Avakyana büstün qoyulması Azərbaycan-Gürcüstan münasibətlərinə xələl gətirmək məqsədi ilə ermənilərin həyata keçirdiyi növbəti təxribatdır.

Aksiyada Sevinc Hümbətova, Tapdıq Yolçuyev, Benyamin Qasımov, Əlibala Əsgərov, Əhməd İmamquliyev, Azər Süleymanov, Simon Kopadze, Quram Marxulia, Tengiz Txelava və başqaları çıxış edərək Azərbaycan




və Gürcüstan dostluğundan danışıb və bu cür halların iki ölkə arasında təxribat yaratmaq məqsədi daşıdığını bildiriblər.

Etirazçılar Gürcüstan dövlətini büstün götürülməsinə göstəriş verməyə çağırıblar. Bildiriblər ki, M.Avakyanın büstü götürülməyənə qədər aksiyalar davam etdiriləcək.

Qeyd edək ki, yanvarın 20-si Axalkalakinin Buqaşen kəndində Qarabağ müharibəsində iştirak etmiş Mixail Avakyanın büstünün açılışı olub. Bu, Gürcüstanda və Azərbaycanda etirazlara səbəb olub.

## QRİP VİRUSUNUN YENİDƏN YAYILMA TƏHLÜKƏSİ VAR

Gürcüstanın müvafiq qurumları qrip virusu ilə bağlı əhaliyə yenidən xəbərdarlıq edir. Müvafiq strukturlar fevralın 2-ci yarısı və mart ayında ölkə ərazisində qrip virusunun yenidən baş qaldıracağını bildirirlər.

Gürcüstanın İctimai Səhiyyə və Xəstəliklərə Nəzarət Milli Mərkəzinin direktoru Amiran Qamkrelidze deyib ki, ölkə ərazisində yanvar ayında tüğyan edən qrip virusu artıq zəifləyib. Lakin Avropada bu virus yenidən canlanıb və bəzi ölkələrdə təhlükəli həddə çatıb: “Qrip virusunun yenidən Gürcüstana keçəcəyi istisna edilmir. Odur ki, əhali son dərəcə ehtiyatlı olmalıdır”.

Mərkəz rəhbərinin sözlərinə görə, hazırda ölkədə əhalinin hər 100 min nəfərindən 186-sı qrip xəstəsidir. Yanvar ayında isə bu rəqəm 277 idi.

Qeyd edək ki, bugünədək Gürcüstanda 22 nəfərin donuz qripindən öldüyü laboratoriyada təsdiq olunub.

## GÜRCÜSTAN PARLAMENTİNİN SƏDRİ TÜRKİYƏ CÜMHURİYYƏTİNƏ SƏFƏR EDİB

Gürcüstan parlamentinin sədri İrakli Kobaxidze parlamentin üzvləri Arçil Xabadze, Zviad Kvacantiradze, İrakli Kovzanadze, Koba Nakaidze, Ramaz Nikolaişvili və parlament sədri kabinetinin rəhbəri Nikoloz Samxaradze ilə birgə Türkiyə Cümhuriyyətinə səfər edib.

Parlament sədri heyətlə bərabər M.K.Atatürkün məzarını ziyarət edərək məzara əklil qoyub və xatirə kitabçasına ürək sözlərini yazıb.

Səfər çərçivəsində İrakli Kobaxidze türk həmkarı Binəli Yıldırımla görüşüb. Şəxsi görüşdən sonra geniş formatda keçirilən tədbirdə ikitərəfli strateji və tərəfdaşlıq əlaqələri haqqında söhbətlər aparılıb. Parlamentlərarası əlaqələr və iqtisadi əməkdaşlığın aktivləşdirilməsi diqqətə yetirilib. Həmçinin iki ölkə arasında mədəni və turizm istiqamətində əməkdaşlığın möhkəmləndirilməsi və bu baxımdan mövcud olan potensialdan söhbət açılıb. Tərəflər



regiondakı inkişafı da müzakirə ediblər və Gürcüstanla Türkiyə arasındakı sıx strateji əməkdaşlığın əhəmiyyətini bir daha vurğulayıblar.

Səfər çərçivəsində İrakli Kobaxidze Türkiyə Cümhuriyyətinin xarici işlər naziri Mövlud Çavuşoğlu ilə də görüşüb. Tərəflər gələcək pespektivləri müzakirə ediblər və siyasi, iqtisadi və mədəni əməkdaşlığa da diqqət yetiriblər. Mövlud Çavuşoğlu Türkiyənin Gürcüstanın NATO-ya üzv olması məsələsini dəstəklədiyini də dilə gətirib.

## MAMUKA BAXTADZE: YENİ MƏKTƏB BİNALARININ TİKİNTİSİ TƏKCƏ PAYTAXTI DEYİL, REGİONLARI DA ƏHATƏ EDƏCƏK

Gürcüstanda təkcə elitar və nüfuzlu məktəblər deyil, təhsildə uğurları çox olan məktəblər olmalıdır. Bu sözləri Gürcüstanın baş naziri Mamuka Baxtadze ölkənin təhsil sahəsindəki islahatlara dair təqdimat mərasimindəki çıxışında söyləyib. Baş nazir deyib ki, cəmiyyətdəki mövcud problemlərin – yoxsulluq, inkişafdan qalma, cinayətkarlıq və digər xoşagəlməz hadisələrin kökündə savadsızlıq dayanır. Biz bunun həlli istiqamətində müəyyən addımlar atmağı qərara aldıq və bunun üçün də ilk növbədə təhsil sahəsində islahatlar dayanır.

Hökumət başçısının sözlərinə görə, təhsil islahatlarında əsas prioritetlərdən biri müəllim əməyi və onun ictimai statusu olacaq. Bu zaman onların əmək haqları da diqqətdən kənarda qalmayacaq. Məktəblərdə inklüziv təhsil, inkişaf, əməkdaşlıq, təhlükəsizliyin təmin olunması, eləcə də



mehriban dostluq münasibətləri xüsusi diqqət mərkəzində olacaq. Hökumət başçısı deyib ki, yeni məktəb binalarının tikintisi və mövcud olanların reabilitasiyası üçün nəzərdə tutulan vəsaitin həcmi 2019-cu ilin dövlət büdcəsində 2,5 dəfə artırılıb.

“Yeni məktəb binalarının tikintisi təkcə paytaxtı deyil, bütün regionları da əhatə edəcək. Biz insan kapitalına yönəlmiş sərmayələri artıracağıq. Bu, cəmiyyətin inteqrasiyası üçün ən vacib şərtdir”, - deyə baş nazir vurğulayıb.



# BƏS O ƏJDAHADAN NİYƏ BİZDƏ YOXDUR?

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

**“Kino hissləri, arzuları və şüuraltını izah etmək üçün ən yaxşı vasitədir.” (Luis Bunyuel, ispan rejissoru)**

Fevralın 5-i Rusiyanın “Mədəniyyət” kanalında Kiril Razloqovun aparıcılığı ilə efirə gedən “Kino kultu” verilişinin qonağı erməni rejissoru Arutyun Xaçatryan idi. Aparıcı və filmin rejissoru 12 dəqiqəlik verilişdə “Şairin qayıdışı” filmi haqqında danışdılar. Kimdir Arutun Xaçatryan və mən nə üçün onun haqqında yazıram, siz isə oxuyursunuz?

Əvvəla onu qeyd edim ki, bu erməni rejissorunu mən də verilişə baxandan sonra tanıdım. Vaxtın qızıldan dəyərli olduğu bir dövrdə məndə verilişi izləməyə marağı A.Xaçatryanın əslən Gürcüstanın Axalkalaki bölgəsindən olmağı və büst, heykəl məsələsi yaratdı.

Bəli, yenə büst, yenə heykəl, amma bu dəfə erməni şairi Aşıq Civaninin heykəli. “Şairin qayıdışı” filmi Axalkalakinin Karçaxi kəndindən olan Aşıq Civani haqqındadır, daha doğrusu şairin heykəli haqqındadır. Rejissorun çox maraqlı və orijinal yanaşması var, bir güllə ilə bir neçə dovşan vurur demək olar. Deməli, film Civaninin heykəlini düzəldən erməni heykəltəraşı ilə başlayır. Heykəl hazır olduqda onu maşına yükləyib Ermənistandan düz Axalkalakiyə, Karçaxiyə aparırlar və film boyu yolda şairin şeirlərini söyləyən insan portretləri, kilsələr, “milli” musiqinin (Azərbaycan musiqisi) sədaları altında təbiət, yol mənzərələri, kəndlər və “eşşək beli”, “dirədöymə” oynayan erməni gənclərinin kadrları göstərilir. Avtobioqrafik film olan “Şairin qayıdışı” ilə rejissor həm şairlərini, həm də Axalkalaki ermənilərini dünyaya göstərir, çünki film bir neçə beynəlxalq festivallarda nümayiş etdirilib və mükafatlar alıb. Üstəgəl də Ermənistanda hazırlanmış Aşıq Civaninin heykəlini Axalkalakiyə gətirdikdən sonra geri aparmırlar, rejissorun verilişdə dediyi kimi, heykəli Axalkalaki sakinlərinə hədiyyə edirlər. Yəni həm film çəkilir, həm təbliğat aparılır, həm də heykəl qoyulur. Və bu film A.Xaçatryanın Axalkalaki haqqında çəkdiyi yeganə film deyil, “Şairin qayıdışı”ndan əlavə, “Ağ şəhər” filmi də var. Verilişdə isə rejissor Axalkalaki haqqında üçüncü filmi çəkəcəyini də bildirdi. Çox gözəl, necə deyərlər, Turana qılıncdan daha kəskin, ulu qüvvət yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət! (Hüseyn Cavid).

Təbliğat belə olar işdə. Əsrimizin ən təsirli və effektiv təbliğat vasitəsi filmdir, istər sənədli olsun, istərsə də bədii. Bəs yaxşı, Borçalıda Borçalı haqqında, borçalılar haqqında, Borçalı şairləri, yazıçıları, rəssamları, alimləri haqqında, borçalıların mədəniyyəti, tarixi haqqında film çəkib beynəlxalq festivallarda göstərən borçalı kimsə varmı? Yoxdur, əzizlərim. Bizim başımız başqa zadlara qarışıb. Bizim bunu edəcək rejissorlarımız yoxdur, operatorlarımız yoxdur, ssenari yazanlarımız, prodüserlərimiz yoxdur, bu işə (!) maliyyə yatıranlarımız yoxdur. Biz Borçalını təxəllüs götürüb toyxanalarda təbliğ edirik (İbrahim Borçalı, Telli Borçalı və s.). Biz Borçalıdan İrana-Turana çıxan kimi onun adını villalarımızda, şirkətlərimizdə Borçalı aşığının çaldığı sazın sədaları altında kədərlə, nisgillə yad etməkdən başqa heç bir iş görmürük. Uzağı gürcü xəngəli reklamı edən “Borçalı” adlı kafelər açırıq. Bizdə aktyora, rejissora, ssenari yazana hələ də bambılı kimi baxırlar. Bu gün Tiflis universitetlərində üç minə yaxın tələbəmizin olduğu ilə fərəhlənirik. Rəhmətlik Yaşar Nuri demiş, ə, nooolsun?! Gedin görün Tiflis Rəssamlıq Akademiyasında, Teatr və Kino Universitetində o üç minə yaxın tələbədən neçəsi təhsil alır. Bəs bizim filmimizi kim çəkəcək? Deputatlarmı, kənd sovetlərimi, stomatoloqlarmı, bank işçilərimi, alverçilərmi? Kim? Heç kim!

Tiflisin episentrində bir teatrımız var, biz heç o teatra sahib çıxmırıq, biz heç olanımızı qorumuruq. O teatrda 12 aktyor çalışır, çalışır deyəndə istiyə, soyuğa bir təhər dözərək mədəniyyətimizi, o teatrı qurub yaradanların ruhunu yaşatmaq üçün əllərindən gələni edirlər. Bu gün-sabah o da uçub dağılacaq. Çünki qəzalı vəziyyətdədir. Çünki yiyəsi yoxdur. Sahib çıxmırıq. Kimə lazımdır teatr, kino, mədəniyyət? Ermənilərə. Tiflisdə erməni teatrı da var, gedin baxın, əsaslı təmir olunur. Tiflisdə rus teatrı da var, elə bil saraydı. Biz isə hər kənddə bir şadlıq sarayı tikməklə məşğuluq. Adını da... Nə isə... Mən demirəm şadlıq sarayı tikilməsin. Amma o şadlıq saraylarında ailə quran cütlüklərin balalarının mədəni gələcəyi üçün teatra da diqqət göstərmək lazımdır.

**Son olaylar da bir daha kimin nəyə qadir olduğunu göstərdi. Biz nə film çəkə bilirik, nə heykəl qoya bilirik. Biz uzağı bir-birimizin mülkünü mənimsəyə, bir-birimizi paxıllaya, ayağının altını qaza, yaxşı maaş almaq üçün vəzifə uğrunda mübarizə apara, uğur qazanan gəncləri ləkələyə və mədəniyyətə qarşı biganə olmağı bilirik. Bir sözlə millət olaraq gələcəyimizi qurmaq üçün heç nə etmirik. Yazını Fransa rejissoru Jan Lük Qodarın sözləri ilə bitirirəm: “Foto gerçəkdir, kino isə saniyədə iyirmi dörd dəfə gerçək”. Bəs bizim Borçalı gerçəklərini lentə alıb dünyaya göstərən rejissorlarımız nə vaxt yetişəcək?..**

## KÖHNƏ ŞƏXSİYYƏT VƏSİQƏLƏRİNİ DƏYİŞDİRMƏK PULSUZDUR

Gürcüstanın ədliyyə naziri Tea Tsulukianinin bəyanatına əsasən, köhnə kağız şəxsiyyət vəsiqələrini fevralın 1-dən martın 1-nə qədər pulsuz dəyişdirmək olar.

Qeyd olunan aksiyadan istifadə etmək istəyən vətəndaşlar Ədliyyə Evlərinə, Dövlət Xidməti İnkişaf Agentliklərinin ərazi şöbələrinə və ya İctimai Mərkəzlərə müraciət edə bilərlər. Aksiya çərçivəsində sənəd verilərkən vətəndaşlar şəxsiyyət vəsiqəsi və foto şəkil üçün lazım olan ödənişdən azaddırlar.

Nazirin dediyinə görə, 2012-ci ilin sonunda Gürcüstanda 3 milyondan artıq kağız şəxsiyyət vəsiqəsi var idisə, bu gün köhnə şəxsiyyət vəsiqəsi 750 min nəfərdə var.



## GÜRCÜSTAN VƏ UKRAYNA ARASINDA ŞƏXSİYYƏT VƏSİQƏSİ İLƏ GEDİŞ-GƏLİŞİN MÜMKÜN OLACAĞI TARİX AÇIQLANDI

Gürcüstan və Ukrayna arasında təkcə şəxsiyyət vəsiqəsi ilə gediş-gəliş mart ayının birindən mümkün olacaq. Bu barədə Gürcüstanın Xarici İşlər Nazirliyi məlumat yayıb.

Məlumata əsasən, Gürcüstan və Ukrayna vətəndaşları sadəcə şəxsiyyət vəsiqəsi ilə iki ölkə arası vizasız səyahət edə və 90 gün qala bilərlər.

Xatırladaq ki, Ukrayna və Gürcüstan arasında şəxsiyyət vəsiqəsi ilə gediş-gəliş barəsində razılaşma ötən ilin oktyabr ayında təsdiq olunmuşdu.



## MÜHARİBƏ VETERANLARI VƏ ONLARIN AİLƏ ÜZVLƏRİ QATARLA 50%-LİK ENDİRİMLƏ SƏYAHƏT EDƏ BİLƏCƏKLƏR



“Gürcüstan Dəmiryolu”nun məlumatına görə, qatarla səyahət edən zaman müharibə veteranları və onların ailə üzvləri 50%-lik güzəştdən istifadə edəcəklər. Güzəşt Gürcüstanın bütövlüyü uğrunda müharibədə iştirak edənlərə, həmin müharibədə həlak olanların ailə üzvlərinə və ailə başçısını itirənlərə, həmçinin İkinci Dünya müharibəsi veteranlarına və Əfqanıstan müharibəsinin iştirakçılarına aiddir.

Veteranlar endirimdən istifadə etmək üçün səyahət bileti alan zaman şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

“Gürcüstan Dəmiryolu”ndan bildiriblər ki, bu təşəbbüsü baş nazir Mamuka Baxtadze irəli sürüb. Hökumət müvafiq sərəncamı 2019-cu ilin 22 yanvarında verib.

## 2021-Cİ İLƏ QƏDƏR İŞSİZLİK KOMPENSASİYASI TƏYİN EDİLMƏLİDİR

Gürcüstan 2021-ci ilə qədər işsizlik kompensasiyası təyin etməyə məcburdur. Bu haqda Həmkarlar İttifaqı Birliyinin rəhbəri İrakli Petriaşvili “Palitra” radiosuna müsahibəsi zamanı bildirib. Onun sözlərinə görə, bu öhdəliyi Avropa İttifaqı ilə Assosiasiya sazişi nəzərdə tutur. İ.Petriaşvilinin dediyinə görə, hökumət və ya parlament üzvləri maksimum dərəcədə çalışırlar ki, bu, diqqətdən kənar qalsın.

Xatırladaq ki, ötən ay İqtisadi siyasət komitəsinin sədri Roman Kakulia bildirib ki, işsizliklə bağlı kompensasiya məsələsi haqqında müzakirə başlamalıdır. R.Kakuliya qeyd olunan məsələ ilə bağlı Maliyyə Nazirliyi ilə də çalışmağı planlaşdırırdı. Ancaq işsizlik kompensasiyası mövzusunda bir neçə gün əvvəl maliyyə naziri də bəyanat verib. Nazir İvane Macavarianinin qiymətləndirməsinə görə, indiki mərhələdə işsizlik kompensasiyasına ehtiyac olduğunu görmür.

## TBİLİSİ HAVA MƏKANI MÜVƏQQƏTİ BAĞLANIR

Gürcüstanda keçiriləcək hərbi təlimlərlə əlaqədar fevralın 15-dən 20-dək hər gün müxtəlif saatlarda Tbilisi üzərində hava məkanı mülki təyyarə və helikopterlər üçün bağlanacaq. Bu barədə Gürcüstanın Mülki Aviasiya Agentliyi məlumat yayıb. Məlumata görə, hava məkanı fevralın 15-də, 17-də və 18-də saat 10:00-dan 11:30-dək və 15:30-dan 17:00-dək, fevralın 16-da və 19-da saat 10:00-dan 11:30-dək və 13:00-dan 14:30-dək, fevralın 20-də isə 10:00-dan 11:30-dək və 14:30-dan 16:00-dək bağlı olacaq.

Bu barədə NOTAM (Notice To Air-Men) agentliyinin saytında da məlumat yerləşdirilib.

## LEVAN İZORİA TÜRKİYƏNİN MÜDAFİƏ NAZİRİ HULUSİ AKARLA GÖRÜŞÜB



NATO Müdafiə Nazirləri Yığıncağı üçün Brüsseldə rəsmi səfərdə olan Gürcüstanın müdafiə naziri Levan İzoria Türkiyə Cümhuriyyətinin milli müdafiə naziri Hulusi Akarla görüşüb. Bu haqda Gürcüstanın Müdafiə Nazirliyi məlumat yayıb.

Məlumatda bildirildiyinə görə, nazirlər arasında ikitərəfli görüşdə Gürcüstan və Türkiyə arasında hərbi əməkdaşlıq müzakirə olunub.

## TÜRKİYƏ FRANSAYA SAXTA "ERMƏNİ SOYQIRIMI"NA GÖRƏ ETİRAZ EDİB



Fransa prezidenti Emmanuel Makronun saxta "erməni soyqırımı" ilə bağlı açıqlaması Türkiyə tərəfinin kəskin etirazına səbəb olub.

Məsələyə ilk etiraz edən Türkiyə prezidentinin mətbuat katibi İbrahim Kalın olub. Anadolu agentliyinin məlumatına görə, Fransa prezidentinin 24 aprel tarixini saxta "erməni soyqırımı" günü elan etmək barədə açıqlamasını kəskin şəkildə qınadıqlarını ifadə edən İbrahim Kalın bildirib ki, ölkəsində siyasi böhran yaşanan Makronun tarixi hadisələri siyasi vasitəyə çevirməsini rədd edirik.

İbrahim Kalın deyib: "Saxta "erməni soyqırımı" iddiaları hüquqi əsası olmayan və tarixi həqiqətləri təhrif edən siyasi yalandır. Bunun Türkiyə üçün heç bir hüquqi hökmü yoxdur".

## TÜRKİYƏ ƏHALİSİNİN SAYI 82 MİLYONU ÖTÜB



Türkiyə əhalisinin sayı 82 milyon 3 min 882 nəfərə çatıb. Bu barədə ölkənin Statistika Təşkilatının "Ünvana əsaslanan əhalinin qeydəalınması sistemi 2018-ci ilin yekunları" adlı hesabatında bildirilib.

Türkiyə əhalisinin sayı 2017-ci illə müqayisədə 2018-ci ildə 1 milyon 193 min 357 nəfər artıb.

Ölkədə kişilərin sayı 41 milyon 138 min 980 nəfər (50,2 faiz), qadınların sayı isə 40 milyon 863 min 902 nəfər (49,2 faiz) təşkil edib.

## TİKA TBİLİSİDƏKİ REABİLİTASİYA VƏ SOSİAL ADAPTASİYA MƏRKƏZİNƏ NƏQLİYYAT VASİTƏSİ HƏDİYYƏ EDİB



Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) dəstəyi ilə 2019-cu ilin 12 fevral tarixində Tbilisidə yerləşən "Reabilitasiya və Sosial Adaptasiya Mərkəzi"nə benefisiarların daşınması üçün lazım olan 18 oturacaqlı nəqliyyat vasitəsi hədiyyə verilib.

Mini avtobusun açarlarını mərkəzin təsisçisi professor Qivi Çikobavaya Türkiyənin Gürcüstandakı səfiri xanım Fatma Ceren Yazqan təqdim edib. Təqdimat mərasimində Tbilisi Yunus Əmrə İnstitunun Tbilisidəki ofisinin rəhbəri, Gürcüstanın Məcburi Köçkünlərin İşləri, Əmək, Səhiyyə və Sosial Müdafiə Nazirliyinin nümayəndələri, benefisiarlar və onların ailə üzvləri iştirak ediblər.

## GÜRCÜSTANIN XARİCİ ÖLKƏLƏRƏ OLAN BORCU AÇIQLANIB

Gürcüstanın Azərbaycana borcu 7, 819 milyon dollar təşkil edir. Bu barədə Gürcüstanın Maliyyə Nazirliyinin aylıq hesabatında bildirilib.

Bu ilin yanvarın 31-nə olan məlumata əsasən, ötən ilin dekabr ayı ilə müqayisədə Gürcüstanın Azərbaycana borcu dəyişməz olaraq qalıb.

Gürcüstanın ümumi xarici dövlət borcu 5 466, 659 milyon dollar təşkil edir ki, bunun da 5 298, 575 milyon dolları hökumətin payına düşür.

Gürcüstanın ən çox borcu olduğu ölkələr Almaniya (324,807 milyon dollar), Fransa (253,317 milyon dollar) və Yaponiyadır (215,366 milyon dollar).

Gürcüstanın Türkiyə, Rusiya və Ermənistana olan borcu aylıq müqayisədə dəyişməz qalaraq, müvafiq olaraq 15,019 milyon dollar, 61,393 milyon dollar və 8,643 milyon dollar təşkil edib.

## BƏS BİZ NƏ ÜÇÜN YAŞAYIRIQ?



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

**İnsanın dünyadakı məsuliyyəti Allaha və axirətə iman etmək, Quranda əmr edilən gözəl əxlaqa sahib olmaq, Allahın məmnuniyyətini qazanmaq üçün səy göstərməkdir.**

Allaha gerçək mənada iman etdiyini söyləyən insan şeytanın bütün səylərinə baxmayaraq doğru yoldan dönməyəcəyini, nəfsinin eqoist ehtiraslarını Allahın məmnuniyyətindən üstün tutmayacağını da sübut etməlidir. Bunu isə qarşılaşdığı hadisələr qarşısında göstərdiyi reaksiyalarla ortaya qoyacaq. Allah "eşitdim, iman etdim" deyərək dini yaşamağı qəbul edən insanın qarşısına səbir tələb edən bəzi çətinliklər çıxaracaq və onu sınayacaq.

Allah "İnsanlar (yalnız) "iman etdik" deyərək sınanmadan buraxılacaqlarınımı zənn etdilər?" (Ənkəbut, 2) buyurur.

İnsanın nəfsi sərhəd tanımaz, bitmək və tükənmək bilməyən ehtirasa malikdir. Eqoist ehtiraslarının təmini üçün yaşayan adam hər şeyə sahib olsa da nəfsini əsla doyura bilməz. Sahib olduğu hər şey daha da artığını istəməsinə gətirib çıxarar. Allah qullarından bir gün yox olacaq dünya malının arxasına düşüb getməmələrini istəyir, ancaq insan Onun istədiklərini etməz, özünə zülm edər. İnsan özünü kor-koranə dünyaya bağlayan nə varsa onlardan xilas olmalı, Allaha yaxınlaşmalıdır.

Həyatlarını Allahın məmnuniyyətini qazanmaq istiqamətində davam etdirən insanlar, dünyanı istək və ehtiraslarını reallaşdıra biləcəkləri bir yer olaraq görməzlər. Nəfslərini təmin etmə kimi bir ehtiras daşımaz, Allaha tərəf yönələr və Ona yaxın olmaq üçün gerçək mənada səmimi bir istək daşıyarlar. Ölümün yaxınlığını, Cənnət və Cəhənnəmi tez-tez düşünərlər. Bir çox çətinlik və imtahan yaşamış olsalar da həyatdakı əsas məqsədlərinin Allahın məmnuniyyətini qazanmaq olduğunu unutmazlar.

Allahın məmnuniyyətini qazanan insanı isə artıq Rəbbi idarə edər, ürəyini, ruhunu və bədənini Allaha tam bir təslimiyyətlə təslim edən insan, hər an xoşbəxtliyi və gözəlliyi yaşayar. Onlar "...Şübhəsiz mənim namazım, ibadətlərim, həyatım və ölümüm aləmlərin Rəbbi olan Allah üçündür" (Ənam, 162) ayəsini düstur alaraq həyat sürərlər.

Həzrət Peyğəmbərin dini təbliğ edərkən ona verilən vədlər və təkliflər qarşısında "Bir əlimə günəşi, bir əlimə də ayı versələr yenə də bu yoldan dönmərəm" cavabı bu mükəmməl insanların bir həyat qaynağı olmuşdur.

Allah möminlərə gözəl bir həyat yaşadacağını vəd edir. Bu, "həyatın dadını çıxararaq" zövq içində keçirilən bir həyat deyil, mömin üçün gözəl həyat Rəbbinin razılığı üçün çalışaraq davam etdirdiyi ləzzət və hüzur dolu həyatdır.

Gəlin görək bəs biz nə üçün yaşayırıq? Həyatdakı məqsədimiz nədir? Pul qazanmaq, kariyera qurmaq, ailə qurmaq, mal-mülk əldə etmək, həyatın dadını çıxarmaq – bunlardırmı məqsədimiz? Yoxsa bizə həyat verən "Mən insanları və cinləri yalnız mənə ibadət etsinlər deyə yaratdım" deyən Allahın razılığını qazanmaq üçünmü yaşayırıq. Onu da bilməliyik ki, arxasından qaçaraq əldə etməyə çalışdığımız hər şey bu dünyada qalacaq. Bizimsə öldükdən sonra özümüzlə aparacağımız tək şey əməlimiz olacaq. O əməllər ki, ya yaxşı əməllərdir ki, bizi Cənnətə götürəcək, ya da pis əməllərimizdir ki, bizi Cəhənnəmə atdıracaq.

**Yaxşı əməl işləyən qullar olmaq ümidi ilə...**

# XOCALIDA ƏLİ AZƏRBAYCANLILARIN QANINA BULAŞAN CİNAYƏTKARA GÜRCÜSTANDA ABİDƏ QOYULUR, BİZ İSƏ MİNLƏRLƏ AZƏRBAYCANLINI ÖLÜMDƏN XİLAS EDƏNƏ SAHİB ÇIXA BİLMİRİK...

**1994-cü ildə Gürcüstanın Axalkalaki rayonunda Xocalıda körpə, yaşlı, qadın, gənc deməyib azərbaycanlılarımızı qanına qəltan edən Qarabağ müharibəsi iştirakçısına, separatçı və cinayətkara büst qoyuldu. 2019-cu ildə 20 Yanvar tarixində – bütün dünya azərbaycanlıları üçün hüzn günü olan bir tarixdə isə eyni separatçı və cinayətkarın büstü yenilənib Ermənistanın Gürcüstandakı səfirinin və Gürcüstanda yüksək vəzifə tutmuş digər erməni əsilli dövlət adamlarının iştirakı ilə təmtəraqlı şəkildə açılışı oldu.**

Erməni Gürcüstanda yüksək vəzifə tutanda dərhal tarixlərini hər bir yolla yaşatmağa çalışır, nəsildən-nəslə ötürməyə çalışır. Qarabağda, eləcə də 20 Yanvarda döyüşən, canlarını qurban verən, şəhid olan neçə Gürcüstan azərbaycanlısı var. Onların adlarının əbədiləşdirilməsi üçün bizlər nə etmişik? Ümumiyyətlə, heç onların adlarını tanıyırıqmı? Təəsüf ki, şəhidlərimizi biz, ümumiyyətlə, heç tanımırıq da. Niyə? Sualın sadə cavabı var, çünki, bizimkilər ermənilərdən fərqli olaraq Gürcüstanda vəzifə sahibi olanda Gürcüstan azərbaycanlısı olan şəhidlərin (Gürcüstanın müstəqilliyi uğrunda vuruşanlar da həmçinin) adlarını əbədiləşdirmək üçün, onların adını hansısa bir küçəyə, parka verilməsi üçün çalışmayıblar, belə desək yadlarından çıxıbdır. Mediada bu qəhrəmanlarımız yalnız Axalkalakidə problem yaşanandan sonra yada düşməli deyil. İlin 4 fəslində bütün media orqanlarında bu qəhrəmanlar daima yad edilməlidir, xalqa tanıdılmalıdır.

Erməni 1994-cü ildə qəhrəman hesab etdiyi cinayətkara büst qoyur, biz isə sahib olduğumuzu belə qoruyub saxlaya bilmirik. Görün nə günə qalmışıq ki, N.Nərimanovun adının BƏRPAsı uğrunda hələ də heç nəyə nail ola bilməmişik. Bəli, təkrar edirəm, böyük hərflərlə yazıram, məhz adının BƏRPAsı, adının verilməsi YOX! Marneuli Mədəniyyət Evi bir vaxtlar N.Nərimanovun adını daşıyıb, ad götürüldü, təsadüf nəticəsində 2018-ci ildə Ramazan bayramı ərəfəsində geniş ictimaiyyətə bu adın götürülməsi məlum oldu. Ərizə yazdıq, Nərimanovun adının bərpası ilə bağlı, yarım ildir ki, ərizəmizə belə cavab gəlməyib. Ancaq Marneuli Mədəniyyət Evinin qarşısındakı barelyefdə günü bu gün də Mədəniyyət Evinin N. Nərimanovun adını daşıdığı göstərilibdir. Nərimanov Marneulinin Qızılhacılı kənd məktəbində azərbaycan/rus dilindən dərs deyibdir, bir vaxtlar həmin məktəb də Nərimanovun adını daşıyıbdır, bu adı da götürdülər. Marneulidə, Nərimanovun adına küçə də var idi, onun adını küçədən də götürdülər.

Sual olunur bu adlar götürüləndə bizim məsul şəxslər hara baxırdı? Nə yaxşı ki, bu yaxınlarda bir gənc (gürcü) müsahibə verib N. Nərimanovun büstü olan parka Merab Kostavanın adının verilməsi ilə bağlı bir qrup insanlarla birlikdə Marneuli Bələdiyyəsinə müraciət etdiyini və onun ərizəsinə müsbət cavab gəldiyi təqdirdə Nərimanovun büstünün həmin parkdan götürüləcəyini söylədi. Biz isə cavab olaraq etiraz aksiyası təşkil etdik, Nərimanovun bütsü yerləşən parka elə Nərimanovun adının verilmsi ilə bağlı Marneuli Bələdiyyəsinə yeni ərizə təqdim etdik. Nərimanovun büstü/heykəli parkda 80-ci illərdə qoyulubdur, Gürcüstanın keçmiş prezidenti Eduard Şevernadze Marneulidə Nərimanovun büstü



olan parkda "Beynəlmiləl Dostluq Günü"ndə, "Nərimanoba" bayramında iştirak edibdir. Axı necə olur ki, 1983-cü ildən bu günə kimi, 36 il ərzində bir nəfər vəzifədə olan məsul şəxsin və ya sayı 300-dən çox olan hansısa azərbaycanlı QHT rəhbərlərinin ağlına həmin parka Nərimanovun adının verilməsi, adının rəsmiləşdirilməsi gəlməyibdir??? Gərək 36 il gözləyəydik ki, hansısa bir gənc(lər) Nərimanovun büstü yerləşən parka başqa bir şəxsin adının verilməsi ilə bağlı Marneuli Bələdiyyəsinin sədrinə rəsmi ərizə təqdim edəydi, beləliklə də biz Nərimanovun büstünün götürülməsi təhlükəsi ilə üzləşəydik, sonra da əl-ayağa düşəydik, etiraz aksiyası təşkil edəydik və parka Nərimanovun adının verilməsi ilə bağlı yeni ərizə təqdim edəydik? Bu yerdə deyərlər, "Müsəlmanın sonrakı ağlı məndə olaydı". Hələ bəzi məsul şəxslər öndə gedib bu ərizəni yazmaq, müraciəti etmək əvəzinə, aksiyanı təşkil edənlərə təşəkkür etmək əvəzinə, görülən işə də "mız" qoyub "provokasiya"ya uymayın deyib məsuliyyətdən yan keçməyə çalışırlar. 36 il ərzində Gürcüstanda hakimiyyət azı 10 dəfə dəyişdi, iqtidar olan müxalifətdə oldu, müxalifət olan iqtidarda oldu, amma dəyişməyən bir şey oldu, milli dəyərlər ayaqlar altında tapdandıqca, milli dəyərlər silindikcə, milli dəyərlərə qarşı olan "laqeydlik, etinasızlıq, biganəlik, ögey münasibət" heç dəyişmədi.

Tbilisidə görkəmli azərbaycanlıların adlarını daşıyan küçələr var, amma həmin küçələrin əksəriyyəti yalnız Tbilisi xəritəsində qeyd olunub. Mir Həsən Vəzirov 26 Bakı komissarlarından olduğu üçün adının dəyişdirilməsi və Tbilisidə anadan olmuş dünyaşöhrətli müğənni Rəşid Behbudovun adının verilməsi gözlənilirdi. Bir azərbaycanlının adı götürüləndə başqa bir azərbaycanlının adının verilməsi gözləniləndir, deyilmi? Amma çifayda, başqa bir gürcünün adı verildi, baxmayaraq ki, Rəşid Behbudovu bütün dünya sevir.

Tbilisidə Mirzə Şəfi Vazeh küçəsində yerləşən N.Nərimanovun Ev Muzeyini hansısa investor otel tikmək məqsədi ilə dağıtdı. Yenə sağ olsun SOCAR, yiyəlik edib N.Nərimanov adına bir Xatirə Muzeyi tikib təhvil verdi. Bəs xəbəriniz varmı Tbilisidə Cəlil Məmmədquluzadənin adına da bir ev muzeyi var. Əminəm ki, 99.9% bu muzeyin qapısının haradan açıldığını belə bilmir. Sizlərdə heç bir günah yoxdur, çünki, bu muzey, muzey kimi fəaliyyət də göstərmir, çox bərbad bir haldadır, ciddi təmirə ehtiyacı var. Bizlərə isə ümid etmək qalır ki, muzey təmir olunana qədər bu muzeyin də aqibəti N.Nərimanovun ev muzeyininki kimi olmayacaq, N.Nərimanovun xatirə muzeyi tikilənə qədər, ev muzeyindən bir çox əşyalar yoxa çıxdı, it-bat oldu, eynilə də C.Məmmədquluzadənin ev muzeyindən...

Aradabir yaşadığımız ölkənin, eləcə də qonşu ölkənin təcrübəsindən yararlanmaq da pis olmazdı. Təsəvvür edin, Kutaisidə "Sataplia" adlanan yer var, guya ki, dinozavrların məskəni olubdur, "dinozavrların ayaq izləri" hər il neçə turisti cəlb edir. Yaxud, bir çoxlarının sevimli yeri olan Siqnaxi şəhərinə turistləri cəlb etmək üçün ad uydurublar "Sevgilər şəhəri", halbuki bu şəhərin sevgi yaxud sevgililərlə bağlı heç bir tarixçəsi yoxdur. Gürcü heç nədən hər şey yaradır, biz isə zəngin mədəniyyətimizi qorumağa belə qadir deyilik, çünki bixəbərik.

İstər gürcü, istərsə də erməni tarixlərini, mədəniyyətlərini yaşadır, biz isə olan-qalanı da itirə-itirə gedirik... Tibb fakültəsində oxuyan bir gürcü mənə dəqiq elmləri bilmək vacibdir, humanitar fənlər nəyimə gərəkdir demir, kimya ilə yanaşı tarixini, ədəbiyyatını da mükəmməl öyrənir. Eynilə də bizlər ilk növbədə ANA dilimizi, ədəbiyyatımızı, tariximizi, mədəniyyətimizi mükəmməl bilməliyik!

Azərbaycan tarixini, Azərbaycan ədəbiyyatını, Azərbaycan dilini bilməyən, dərk etməyən gənclər mədəniyyətimizdən, tarixi keçmişimizdən də bixəbər olacaqlar, bu da öz növbəsində VƏTƏNPƏRVƏRLİK hissinin sönməsinə, tədricən ölməsinə gətirib çıxaracaq. Tarixi keçmişimizdən, mədəniyyətimizdən bixəbər olanlarda heç vaxt milli dəyərləri qoruyub saxlamaq hissi, bağlılığı olmayacaq. Bu kimi insanlar heç vaxt Nərimanovu müdafiə etməyəcəklər, hansısa bir investor gəlib C.Məmmədquluzadənin ev muzeyini dağıdıb yerində otel tikmək istəyəndə buna biganə qalacaqlar. Gələcək fəsadlarla üzləşməmək üçün milli sərvətimizi, milli dəyərlərimizi göz bəbəyimiz kimi qoruyaq, nəsildən-nəslə ötürək!

1994-cü ildə erməni məmurları əli insan qanına bulaşmış bir cinayətkara abidə ucaldır, biz isə Üzeyir Hacıbəyovu, Hacı Zeynalabdin Tağıyevi, Səməd bəy Mehmandarovu, Əliağa Şıxlınskini, eləcə də minlərlə ziyalılarımızı represiyadan, güllələnməkdən xilas edən, həkim kimi insanlara şəfa verən, müəllim kimi azərbaycanlılarımıza ziya, təhsil, təlim-tərbiyə verən N.Nərimanovun adının Marneuli Mədəniyyət Evindən götürülməsinə, Qızılhacılı kənd məktəbindən götürülməsinə, vaxtilə onun adını daşıyan küçədən götürülməsinə etiraz edə bilməyib, lal-dinməz olub HEYKƏL kimi hələ də kənardan müşahidə etməkdəyik...

**Başımız əhlət daşına dəyəndən sonra da bu laqeydlik, biganəlik, etinasızlıq, ögey münasibət yenə də davam edəcəkmi? Ziyanın yarısından qayıtmaq da xeyirdir deyib atalarımız...Bu sağlam tənqiddən məsul şəxslərin nəticə çıxarması ümidi ilə...**

*Aygül İSAYEVA*
*Beynəlxalq Qafqaz Universitetində Assosativ Professor,*
*İqtisadiyyat üzrə fəlsəfə doktoru*

## TƏHSİL NAZİRİ: SENTYABRDAN MÜƏLLİMLƏRİN ƏMƏK HAQQI ARTIRILACAQ

Gürcüstanın təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Batiaşvili parlamentdə çıxışı zamanı sentyabrda müəllimlərin əmək haqqının artırılacağını bildirib: "May ayında pedaqoqların əmək haqqı ilə bağlı konkret plan təqdim edəcəyik və sentyabrdan əmək haqları artacaq. Vəd verdiyimiz kimi məktəb reformasının əsas prinsipləri – məktəbin gücləndirilməsi, muxtariyyət və desentralizasiya, bürokratiyadan yaradıcılığa keçid, məktəb direktorunun məktəbin lideri olması və pedaqoqun yaradıcılıq məsələlərinə istiqamətlənməsi olacaq".



Nazirin sözlərinə görə, müəllim bürokratiyaya daha az vaxt ayırmalıdır və vaxtının çoxunu yaradıcılıq işlərinə sərf etməlidir. Müəllimlərin istədiyi vaxt, istədiyi səviyyədə imtahan vermək və kvalifikasiya qazanmaq imkanı olmalıdır.

"Uzun müddətli prosesdə maksimum keyfiyyət xidmətlərini gücləndirməliyik və məktəb güclü institut olmalıdır, öz keyfiyyətinin inkişafının qayğısına özü qalmalıdır", - deyə M.Batiaşvili bildirib.

## BURAXILIŞ İMTAHANLARI HƏM 11, HƏM DƏ 12-Cİ SİNİF ŞAGİRDLƏRİ ÜÇÜN LƏĞV EDİLİB

"Gürcüstanda bu il 12-ci sinif şagirdləri üçün buraxılış imtahanları keçirilməyəcək". Bunu Gürcüstanın baş naziri Mamuka Baxtadze keçirdiyi brifinqdə bildirib.

O deyib ki, təhsil sistemində islahatların həyata keçirilməsi hökumətin əsas prioritetlərindən biridir: "Təhsil, Elm, Mədəniyyət və İdman Nazirlyi 2019-cu ildə attestat imtahanlarının yalnız 11-ci sinif şagirdləri üçün ləğv olunması barədə qərar qəbul edib. Bu, prinsipial olaraq düzgün yanaşmadır və məsələ ilə bağlı məsləhətləşmələr aparıldı. Nəticədə buraxılış imtahanlarının həm 11, həm də 12-ci sinif şagirdləri üçün ləğv olunması haqqında qərar qəbul edildi".

Qeyd edək ki, bu yaxınlarda təqdim olunmuş təhsil sisteminin yeni modelinə əsasən, 2019-cu ildə ictimai məktəblərdə buraxılış imtahanlarının ləğvi yalnız 11-ci sinif şagirdlərinə şamil olunacaqdı. 12-ci sinif şagirdlərinin bu imtahanlardan azad edilməməsi cəmiyyətdə ciddi narazılığa səbəb olmuşdu.

## MANANA RATİANİ: SENTYABRDAN "AXTARAN" PROQRAMI QÜVVƏYƏ MİNƏCƏK VƏ TƏHSİLİNİ YENİ BAŞA VURANLARA MƏKTƏBDƏ ÇALIŞMAQ HÜQUQU VERİLƏCƏK



"Sentyabrdan "axtaran" proqramı qüvvəyə minəcək. Proqram təhsilini yeni başa vurmuş şəxslərə məktəbdə çalışmaq imkanının verilməsini nəzərdə tutur. Onlar çalışmaqla yanaşı peşəkar inkişaf da edəcəklər". Bu haqda Müəllimlərin Peşəkar İnkişafı üzrə Milli Mərkəzin rəhbərinin müavini Manana Ratiani bildirib.

Onun sözlərinə görə, müəllimlərin peşəyə daxil olması yollarını tənzimləyəcək qayda hazırlanacaq.

"Müəllimlərin peşəyə daxil olması yollarını tənzimləyəcək qayda hazırlanacaq. Bu gün üçün bir neçə forma var: 5 illik 300 kreditlik proqram universitetin bazasında işlənilib. 60 kreditlik – daha qısa yol, başqa ixtisasa sahib olan şəxsin müəllim olmaq istəməsi. Ona imkan verilir ki, 1 il ərzində bu proqramı keçsin və müəllim kvalifikasiyası qazansın", - bildirib M.Ratiani.

## PEŞƏ MƏKTƏBLƏRİNİN DİPLOMU İLƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLMAQ MÜMKÜN OLACAQ

Təhsil naziri Mixeil Batiaşvili peşə təhsili istiqamətində planlaşdırılan reformaları təqdim edib. Təqdimatda bildirilib ki, təhsilin inteqrasiyasına dəstək baza təhsili (9 sinif) olan gənclərə imkan verəcək ki, peşə ilə yanaşı ümumi təhsil də alsınlar.

Bu o deməkdir ki, peşə məktəblərinin diplomu ümumi təhsil diplomuna bərabər olacaq. Nəticədə isə baza təhsili olan gənclər peşə öyrənməklə yanaşı məktəb fənlərini keçə və peşə təhsili diplomu ilə ali təhsil müəssisəsinə qəbul ola biləcəklər. Reformanın tədbiqi bu ilin may ayından planlaşdırılır.

Reformanın üç illik fazası həmçinin qeyri-formal təhsilin tanınması mexanizmlərinin, peşə proqramlarının həyata keçirilməsində işlə təmin olunanın qoşulmasına dəstək olmağı, işə əsaslanmış/ikili tədris miqyaslarının genişləndirilməsinə, mübadilə proqramları və beynəlxalq sertifikatlaşdırma qazanmış proqramların əsasının qoyulmasını nəzərdə tutur.

## MİLLİ AZLIQLARIN YAŞADIĞI BÖLGƏLƏRDƏ BURAXILIŞ İMTAHANLARININ MODELİ İLƏ BAĞLI ARAŞDIRMA APARILACAQ



"Gürcüstanda milli azlıqların yaşadığı bölgələrin məktəblərində başqa, paralel reallıq mövcuddur". Bunu Gürcüstanın təhsil, elm, mədəniyyət və idman nazirinin müavini İrina Abuladze təhsil üzrə mütəxəssislər və beynəlxalq təşkilatların nümayəndələri ilə imtahanların yeni modeli ilə bağlı keçirdiyi görüşdə bildirib.

O deyib ki, əgər buraxılış imtahanlarında müvəffəqiyyətsizlik göstəricisi 20-25 faizdirsə, bunun 20 faizi əsasən milli azlıqların yaşadığı bölgələrin payına düşür: "Milli azlıqlarla bağlı ayrıca araşdırma aparmaq lazımdır, onların yaşadığı bölgələrdə başqa milli tədris planı tətbiq olunur, dərsliklər ümumiyyətlə yoxdur".

İ.Abuladze qeyd edib ki, ABŞ-ın USAID təşkilatı təhsil sisteminin qiymətləndirilməsini həyata keçirəcək və təqribən bir aydan sonra nəticələr hazır olacaq: "Bu, bizə hansı vasitə və mexanizmləri fikirləşməyimiz barədə əlavə informasiya verəcək".

## MƏKTƏBLƏRİN, UŞAQ BAĞÇALARININ VƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN HEYƏTİNİN QIZILCAYA QARŞI PEYVƏND OLUNMAQ ÜÇÜN NƏ QƏDƏR VAXTLARI VAR?



Məktəblərin, uşaq bağçalarının və ali təhsil müəssisələrinin heyət üzvləri qızılcaya qarşı peyvəndi cari ilin 18 mart ayına qədər vurdurmalıdır. Müvafiq vaxt hökumət tərəfindən verilmiş sərəncamda qeyd olunub.

Sənədə əsasən, hökumət sərəncamı cari ilin 18 yanvarında qəbul edib. Sərəncamda qeyd olunub ki, tədris müəssisələrinin benefisiarları peyvənd haqqında məlumatı 2 ay müddətində təqdim etməlidirlər və nəticədə müəssisələr qeyd olunan göstəriciləri İctimai Səhiyyə Mərkəzinə çatdırmalıdırlar.

Sərəncama əsasən, tədris müəssisələrinə məlumatın verilməsindən 2 ay müddətində benefisiarlar tərəfindən peyvəndi təsdiqləyən arayış təqdim olunmadığı halda qeyd olunan şəxslərin statusunun dayandırılması məsələsi müzakirə olunacaq.

Statusun dayandırılması ilə bağlı Tbilisi Uşaq Bağçalarının İdarəsi Agentliyindən bildiriblər ki, Səhiyyə Nazirliyinə müvafiq göstəriciləri təqdim etdikdən sonra, bütün əməkdaşlara qarşı fərdi yanaşma olacaq. Təhsil Nazirliyinin məlumatına görə isə, peyvənd vurdurmayan tədris müəssisəsi əməkdaşlarını hansı talenin gözlədiyi haqqında ətraflı məlumat yaxın gələcəkdə veriləcək.

**Səhifəni hazırladı:** Aynurə Əliyeva

# PARLAMENTİN DEPUTATLARI QARABAĞ SEPARATÇISINA BÜSTÜN QOYULMASINI QINAYIBLAR




Gürcüstan parlamentinin deputatları Qarabağ separatçısı Mixail Avakyana Axalkalaki rayonunun Buqaşen kəndində büstün qoyulması ilə bağlı müraciət qəbul ediblər.

"Report"un Gürcüstan bürosunun verdiyi xəbərə görə, məktubu hakim "Gürcü arzusu" Partiyasının deputatları Mahir Dərziyev, Savalan Mirzəyev, Ruslan Hacıyev və Tamaz Naveriani imzalayıblar.

Müraciətdə deyilir ki, Mixail Avakyana abidənin ucaldılması Gürcüstan ictimaiyyəti, eləcə də bu ölkənin Azərbaycan icması tərəfindən haqlı olaraq dərin qınaq və narazılıqla qarşılanıb: "Gürcüstan separatçılıq, terrordan ən çox əziyyət çəkən ölkələrdən biridir. Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində vuruşmuş, dinc əhaliyə qarşı qətliamlarda iştirakına dair əsaslı şübhələr olan separatçıya, terrorçuya abidə qoyulması, ilk növbədə, Gürcüstanın özünə qarşı bir xəyanətdir. Bu, həm də Gürcüstanın milli və dövlət maraqlarına zidd olan bir addımdır".

Millət vəkilləri qeyd ediblər ki, həmin büstün Azərbaycan xalqının hüzn günü - 20 Yanvar faciəsinin ildönümünün qeyd olunduğu bir gündə qoyulması ilə bağlı soydaşlarımızın keçirdiyi hissləri onlar da bölüşürlər: "Tam məsuliyyətlə bildirmək istəyirik ki, bu hadisə Gürcüstan dövlətinin və bizim təmsil olunduğumuz "Gürcü arzusu" - Demokratik Gürcüstan Partiyasının mövqeyi ilə tam ziddir. 1994-cü ildə qoyulmuş abidənin bərpası və açılış mərasimi ilə bağlı bütün məsuliyyət Axalkalaki yerli özünüidarəetmə orqanının üzərinə düşür".

Müraciətdə həmçinin vurğulanıb ki, parlament, hökumət və partiya səviyyəsində keçirilmiş müzakirələrdə bu xoşagəlməz hadisədən narahatlıq ifadə olunub, gələcəkdə bu cür hadisələrin təkrar olunmaması üçün bu gün lazımı tədbirlərin görülməsi qərara alınıb.

Sənəddə Azərbaycanla münasibətlərin, strateji tərəfdaşlığın önəmi vurğulanıb və bu münasibətləri zədələyəcək hər hansı bir addımın yolverilməz olduğu bildirilib: "Bu yekdil rəy parlament və partiya rəhbərliyinin, millət vəkillərinin KİV-lərə verdikləri açıqlamalarında da birmənalı olaraq qeyd edilib. Ayrı-ayrı məmurların fərdi məsuliyyəti, onların əməllərinə hüquqi qiymət verilməsi məsələsi gündəmdədir".

Deputatlar yaranmış şəraitdə Gürcüstanda yaşayan azərbaycanlıları səbir və təmkinlə davranmağa, emosiyalara qapılmamağa çağırıblar: "Bu məsələ ətrafında ajiotaj, məsələnin siyasi müstəviyə çəkilməsi bəlli daxili və xarici qüvvələrin mənafelərinə xidmət edir. Unutmayaq ki, cəmiyyətdə qarşıdurma, gərginlik yaradılması, xüsusilə ölkəmizdə millətlər arasındakı mövcud dostluq və qarşılıqlı etimad münasibətlərinə ziyan vurulması Gürcüstana qarşı yönəldilmiş bir təxribat olar".

# NAZİRLƏRİMİZ ALİ TƏHSİLLƏRİNİ HARADA ALIBLAR VƏ İXTİSASLARI NƏDİR?



**2018-ci ildə həyata keçirilmiş struktur dəyişikliklərindən sonra Gürcüstanda nazirliklərin sayı 11-ə endirildi. Buna uyğun olaraq hökumətin tərkibi də 11 nazirdən və baş nazirdən ibarət oldu. Bəs nazirlərimiz ali təhsillərini harada alıblar və hansı ixtisasın sahibidirlər?**

Hökumət başçısı, baş nazir **MAMUKA BAXTADZE** İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetini (TDU) bitirib. Həmçinin Lomonosov adına Moskva Dövlət Universitetinin magistr dərəcəsinə yiyələnib. M.Baxtadze ixtisasca texniki elmlər doktorudur. 2010-cu ildə ona INSEAD biznes-məktəbində MBA (Master of Business Administration) (menecmentdə (idarəetmədə) ixtisas dərəcəsidir – RED.) kvalifikasiyası verilib.

Daxili işlər naziri **GİORGİ QAXARİA** 1992-1994-cü illərdə TDU-nun Tarix fakültəsini bitirib. 1994-2000-ci illərdə Rusiyada Lomonosov adına Moskva Dövlət Universitetində Politologiya fakültəsində təhsil alıb və Siyasi elmlər üzrə magistr dərəcəsi qazanıb. 2002-2004-cü illərdə isə həmin universitetdə Biznesin idarəsi üzrə magistr olub.

Baş nazirin müavini, regional inkişaf və infrastruktur naziri **MAİA TSKİTİŞVİLİ** ixtisasca iqtisadçıdır. O, İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin Beynəlxalq iqtisadi münasibətlər fakültəsini bitirib. Həmçinin Praqanın Ali İqtisadiyyat Məktəbində Beynəlxal ticarət fakültəsində təhsil alıb. Bundan sonra təhsilini Tbilisidə, Qafqaz Biznes Məktəbində davam etdirib.

İqtisadiyyat və davamlı inkişaf naziri **GİORGİ KOBULİA** 1993-cü ildə Tbilisi Dövlət Tibb İnstitutunu bitirib. 2001-ci ildə isə ABŞ-da Emori Universitetinin biznes məktəbində Biznes administrasiyası üzrə magistr dərəcəsi qazanıb.

Xarici işlər naziri **DAVİT ZALKALİANİ** 1992-ci ildə Beynəlxalq hüquq ixtisası üzrə İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetini bitirib.

Maliyyə naziri **İVANE MACAVARİANİ** 1996-cı ildə İ.Cavaxişvili adına Tbilisi Dövlət Universitetində İstehsal iqtisadiyyatı və idarəsi kvalifikasiyası qazanıb. 1997-ci ldə "Beynəlxalq mühasibat standartlarının" xüsusi intensiv kursunu keçib. 2009-cu ildə müxtəlif maliyyə sahələrində tədris proqramını uğurla başa vurub. Həmçinin telekommunikasiyalarla bağlı çox sayda təlim keçib.

Təhsil, elm, mədəniyyət və idman naziri **MİXEİL BATİAŞVİLİ** 1996-cı ildə İ.Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin Psixologiya fakültəsini bitirib.

Əmək, sağlamlıq və sosial müdafiə naziri **DAVİT SERGEENKO** 1987-ci ildə İ.Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin Pediatriya fakültəsini bitirib. 1991-ci ildə isə Moskva Həkimləri Təkmilləşdirmə İnstitutunda intensiv terapiya istiqamətində təhsil alıb. Kritik tibb sahəsində anesteziologiya-reanimatologiya üzrə dövlət sertifikatı ilə təltif olunub.

Ətraf mühitin mühafizəsi və kənd təsərrüfatı naziri **LEVAN DAVİTAŞVİLİ** 1995-1999-cu illərdə TDU-nun İqtisadiyyat fakültəsində təhsil alıb. 1999-2001-ci illərdə həmin universitetin Beynəlxalq biznesin idarəsi üzrə magistr dərəcəsi qazanıb. 2002-2003-cü illərdə isə Milanda MIP idarətmə məktəbində Biznesin idarəsi üzrə magistr dərəcəsi alıb.

Müdafiə naziri **LEVAN İZORİA** 1996-cı ildə TDU-nun Hüquq fakültəsini bitirib. 1998-1999-cu illərdə Almaniyanın Göttingen şəhərində Georg August adına Universitetin Hüquq fakülətsində təhsil alıb. Həmçinin 1999-2002-ci illərdə həmin universitetin Hüquq fakültəsinin doktorantura dərəcəsini qazanıb.

Ədliyyə naziri **TEA TSULUKİANİ** 1992-1997-ci illərdə TDU-nun Beynəlxalq hüquq və beynəlxalq münasibətlər fakültəsində təhsil alıb. Bununla yanaşı XİN Diplomatiya Akademiyasında təhsil alıb. 2000-ci ildə Tea Tsulukiani Dövlət İdarəsi Məktəbini bitirib və İctimai administrasiya üzrə magistr dərəcəsini müdafiə edib.

Barış və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət naziri **KETEVAN TSİXELAŞVİLİ** 1995-1999-cu illərdə İvane Cavaxişvili adına Tbilisi Dövlət Universitetinin Beynəlxalq münasibətlər fakültəsini bitirib. 1999-2000-ci illərdə Mərkəzi Avropa Universitetində (Macarıstan) Beynəlxalq münasibətlər və Avropa araşdırmaları üzrə magistr dərəcəsi alıb. Həmçinin İrlandiyada Limerik Universitetinin Avropa inteqrasiyası məsələləri üzrə yay kursunu keçib. 2006-cı ildən isə İlia Dövlət Universitetinin Fəlsəfə və sosial elmlər fakültəsinin doktorantıdır.

**Hazırladı:** Taia ARDOTELİ
**Gürcü dilindən tərcümə:** Aynurə ƏLİYEVA

# DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ ŞAHİD VƏ ZƏRƏRÇƏKƏNİN KOORDİNATORU XİDMƏTİ QÜVVƏYƏ MİNİB

Daxili İşlər Nazirliyində şahid və zərərçəkənin koordinatoru xidməti qüvvəyə minib. Yayımlanan bəyanatda deyilir:

"Daxili İşlər Nazirliyinin "davamlı yenilənməsi", istintaq istiqamətində aparılan reforması çərçivəsində şahid və zərərçəkənin koordinatoru xidməti qüvvəyə minib.

DİN üçün cinayətin effektiv araşdırılması ilə yanaşı cinayət qurbanı və şahidin dəstklənməsi, eləcə də onların yenidən və təkrar viktimizasiyadan (qurbana çevrilmək prosesi – RED.) qorunması vacibdir. Xidmətin əsas məqsədi müstəntiq və zərərçəkən/şahid arasında effektiv ünsiyyət yaratmaq və cinayət nəticəsində yaranan stresə qalib gəlməkdə kömək etmək olacaq.

Cinayət prosesində koordinator üstünlük olaraq ailədə zorakılıq, ayrıseçkilik işarəsi ilə törədilmiş cinayət, seksual zorakılıq, insan alveri nəticəsində zərərçəkmiş qurbanlarla ünsiyyət məsələsini müzakirə edəcək. Həmçinin yetkinlik yaşına çatmamış və fiziki məhdudiyyətli zərərçəkənlərlə/şahidlərlə ünsiyyət müzakirə olunacaq.

Birinci mərhələdə koordinatorlar Tbilisi, Rustavi və Marneulidə pilot rejimdə çalışacaqlar. Qeyd olunan mövqedə 6 nəfər işlə təmin olunacaq.

DİN koordinator vəzifəsinə namizədlərin seçilməsi üçün artıq müsabiqə elan edib. Müsabiqədə müvafiq kvalifikasiyası olan ali təhsilli şəxslər iştirak edə bilərlər. Ərizəni www.hr.police.ge veb-səhifəsində tapmaq olar. Müraciətlərin son qəbul vaxtı 21 fevralda başa çatacaq.

## DÖVLƏT NAZİRİ: TSOPİ KƏNDİNDƏ MÜASİR TƏLƏBLƏRƏ CAVAB VERƏN YENİ MƏKTƏB TİKİLƏCƏK



Gürcüstanın barış və vətəndaş bərabərliyi məsələləri üzrə dövlət naziri Ketevan Tsixelaşvili Marneuli rayonunun Tsopi kənd məktəbində olub və tezliklə müasir tələblərə cavab verən yeni məktəb binasının inşa olunacağını bildirib.

K.Tsixelaşvili deyib ki, binanın tikintisi ilə bağlı elan olunan tender bir neçə gündən sonra başa çatacaq və tikinti işlərinə start veriləcək: "Bu gün Tsopi kəndində olmağımdan çox məmnunam. Bu kənddə bizim azərbaycanlı və erməni vətəndaşlarımız uzun illərdir ki, bir ailə kimi yaşayırlar. Bu, çox yaxşı ənənədir. Kənd məktəbində də azərbaycanlı və erməni uşaqlar birlikdə təhsil alırlar".

Dövlət naziri birinci sinif şagirdlərinə simvolik hədiyyələr təqdim edib. Qeyd olunub ki, məktəb şagirdləri üçün Tbilisiyə tanışlıq turu təşkil olunacaq.

Məktəbə baş çəkəndən sonra K.Tsixelaşvili kənd sakinləri ilə görüşüb və onları narahat edən problemlərlə maraqlanıb.

Dövlət nazirini Tsopi kəndinə səfərində Kvemo Kartli bölgəsinin qubernatoru Şota Rexviaşvili, Marneuli rayon rəhbərliyinin nümayəndələri və digər rəsmi şəxslər müşayiət ediblər.

## MARNEULİ RAYONU FASİLƏSİZ İÇMƏLİ SU İLƏ TƏMİN OLUNACAQ



Marneuli rayonu iki ildən sonra fasiləsiz içməli su ilə təmin olunacaq. Bu barədə regional inkişaf və infrastruktur naziri Maia Tskitişvili bildirib.

Onun sözlərinə görə, hazırda Marneuli əhalisinin 83 faizi gün ərzində 5-6 saat qrafiklə içməli su ilə təmin olunur: "Marneuli rayonunda su təminatının yaxşılaşdırılması istiqamətində layihə həyata keçirilir. Layihənin 2021-ci ilin mart ayında başa çatdırılması planlaşdırılır".

M.Tskitişvili deyib ki, layihənin reallaşdırılmasından sonra Marneuli rayonu və kəndlərinin 35200-ə yaxın sakini fasiləsiz və keyfiyyətli içməli su ilə təmin olunacaq.

Nazir vurğulayıb ki, layihəyə kanalizasiya sisteminin də qurulması daxildir və nəticədə Marneuli, Bolnisi və Qızılhacılı kəndinin 38 minə yaxın sakini kanalizasiya infrastrukturundan istifadə edə biləcək.

Qeyd edək ki, dəyəri, təqribən, 56 milyon dollara yaxın olan infrastruktur layihəsini Asiya İnkişaf Bankı maliyyələşdirir. Tikinti işlərini Azərbaycanın "Akelik Group" şirkəti həyata keçirir.

## SAQARECO RAYONUNUN UDABNO KƏNDİNDƏ İÇTİMAİ MƏRKƏZİN AÇILIŞI OLUB



Saqareco rayonunun Udabno kəndində 200-dən çox dövlət xidmətinin təqdim olunacağı İctimai Mərkəzin açılışı olub. Mərasimdə Gürcüstanın baş naziri Mamuka Baxtadze, ədliyyə naziri Tea Tsulukiani və digər rəsmi şəxslər iştirak ediblər. M.Baxtadze çıxışında bölgələrin bərabər inkişafının hökumətin əsas prioritetlərindən biri olduğunu deyib.

"İctimai Mərkəz istənilən kənd üçün çox vacibdir. Bu cür mərkəzlərin yaradılmasının əsas ideyası ondan ibarətdir ki, bölgələrdə yaşayan vətəndaşlar bütün lazımı xidmətlərdən yararlana bilsinlər", - deyə baş nazir bildirib.

Baş nazir qeyd edib ki, David Qareci məbəd kompleksi hər bir gürcü və xristian üçün unikal abidədir və Udabno kəndinin unikal turizm məkanına çevrilməsinə səbəb olub: "Təəssüflər olsun ki, infrastruktur baxımından kənddə müəyyən çatışmazlıqlar olub. Bir neçə il öncə kəndin su təminatı layihəsi başa çatdırılıb. Qısa vaxt ərzində Udabnoda avtomagistralın çəkilməsi ilə bağlı işlər aparılacaq".

T.Tsulukiani, öz növbəsində, Udabno kəndində inşa olunan İctimai Mərkəzin formasının memarlıq baxımından digərlərindən fərqləndiyini bildirib.

"Layihə əhalisi 600 nəfərdən çox olmayan yaşayış məntəqələri üçün xüsusi olaraq hazırlanıb. Udabno kəndində İctimai Mərkəzin tikilməsi barədə qərar bir neçə faktorların nəzərə alınması ilə qəbul olunub. Bu kənd Gürcüstan və Azərbaycan arasında dövlət sərhədi boyunda yerləşir, etnik azlıqlar və ekomiqrantlarla məskunlaşıb və turistik baxımından cəlbedici zonadır. Bununla yanaşı, Udabno kəndi David Qareci məbəd kompleksinin yaxınlığında yerləşir",- deyə T.Tsulukiani bildirib.

## BƏLƏDİYYƏ SƏDRİ: "NƏRİMAN NƏRİMANOVUN ABİDƏSİNİN GÖTÜRÜLƏCƏYİ İLƏ BAĞLI YAYILAN MƏLUMATLAR HƏQİQƏTƏ UYĞUN DEYİL"

"Marneulidə Nəriman Nərimanovun abidəsinin götürüləcəyi ilə bağlı yayılan məlumatlar həqiqətə uyğun deyil". "Report"un Gürcüstan bürosu xəbər verir ki, bunu Marneuli rayon bələdiyyəsinin sədri Amiran Giorqadze bildirib.

O, Bələdiyyə Məclisinin iclasında çıxış edən zaman deyib ki, abidənin köçürülməsi haqqında nə Bələdiyyə Məclisində, nə də meriyada söhbət olub: "Deputatları çağırıram ki, əgər sizin icmalarınızda bu barədə söhbət olarsa,



əhaliyə düzgün məlumat verin və çox xahiş edirəm, bu məsələyə diqqətlə yanaşın".

Qeyd edək ki, son günlər Marneulidə Azərbaycanın görkəmli dövlət xadimi və ədibi Nəriman Nərimanovun büstünün olduğu parka Merab Kostavanın adının verilməsi və abidənin yerinin dəyişdiriləcəyi haqqında məlumatlar yayılıb. Yanvarın 28-də azərbaycanlı gənclər və ziyalılar büstün önündə N.Nərimanovun adının yaşadılması tələbi ilə aksiya keçirib. Aksiya iştirakçıları Marneuli rayon bələdiyyəsinin sədri A.Giorqadzeyə müraciət qəbul ediblər. Onlar N.Nərimanovun büstünün götürülməsinə qəti etirazlarını ifadə edərək, abidənin götürülməsinə heç vaxt yol verməyəcəklərini bildiriblər.

## RUSTAVİ AZƏRBAYCANLILARINA QƏBİRİSTANLIQ ÜÇÜN TORPAQ SAHƏSİ VERİLDİ

Rustavidə yaşayan azərbaycanlılar üçün iki hektar qəbiristanlıq sahəsi ayrılıb. Bununla bağlı Rustavi sakinləri ilə görüş keçirilib. Görüşdə Kvemo-Kartli qubernatoru Şota Rexviaşvili, onun müavini Zaur Darğallı, Rustavinin meri İrakli Tabağua, Bütün Gürcüstan Müsəlmanları İdarəsinin şeyxi Ramin İgidov iştirak edib.

Tədbirdə çıxış edən rəsmilər uzun illərdir Rustavi şəhərində qəbiristanlığın olmaması səbəbindən yaşanan problemlərdən danışıblar. Şeyx Ramin İgidov bildirib ki, bir neçə ildir mövcud problemlə bağlı şəhər rəhbərliyinə müraciət edilsə də problemin həlli üçün heç bir addım atılmırdı. Bu gün göstərilən bu diqqət çox yüksək qiymətləndirilir.

Rustavi sakinləri isə şəhər merindən qəbiristanlıq üçün ayrılmış sahənin hasarlanmasını və lazımı infrastrukturun qurulmasını xahiş ediblər.



Qeyd edək ki, Rustavidə müsəlman qəbiristanlığı olmadığına görə burada yaşayan azərbaycanlılar və digər müsəlmanlar dünyasını dəyişmiş yaxınlarını müxtəlif şəhər və kəndlərdə dəfn edirdilər.

## QARDABANİ BƏLƏDİYYƏSİNİN 25 İDMAN MƏKTƏBİNƏ İDMAN LƏVAZİMATLARI VERİLİB



Qardabani bələdiyyəsinin 25 idman məktəbinə Qardabani meriyasının Təhsil, Elm, Mədəniyyət, İdman və Gənclərin İşləri üzrə Xidmətinin təşəbbüsü ilə 45 adda müxtəlif idman ləvazimatları verilib. Qardabani bələdiyyəsinin sakrebulo sədri Tariel Canxoteli idmanın inkişafının bələdiyyənin üstünlüklərindən biri olduğunu deyib.

"Qeyd edim ki, yeni ili məşqçilər üçün əmək haqqının artırılması ilə başladıq. Ümumilikdə 43 məşqçinin əmək haqqını artırdıq, əlbəttə, bu, birdəfəlik xarakter daşımayacaq və imkan daxilində onların maliyyəsini yenə artıracağıq. 2019-cu ildə ərazi vahidlərində idman zallarının bərpası və bayırda drenaj məkanlarının qurulması planlaşdırılır. Bu gün 25 idman məktəbinə lazımı ləvazimatlar verdik. Yaxın gələcəkdə isə əlavə 100000 lari dəyərində əşyalar alacağıq", - bildirib Tariel Canxoteli.

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI 15 FEVRAL 2019-CU İL/ №003 (83)

# Yeni YOL

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | იენი იოლი საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## TBİLİSİDƏ "GÜRCÜSTANDA DİNLƏR" ADLI FOTOALBOMUN TƏQDİMATI OLUB



Tbilisidə Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin layihəsi əsasında hazırlanmış "Gürcüstanda dinlər" adlı gürcü və ingilis dillərində fotoalbomun təqdimat mərasimi keçirilib. Təqdimat mərasimində çıxış edən Agentlik rəhbəri Zaza Vaşakmadze bildirib ki, fotoalbom Gürcüstanın etnik, dini müxtəlifliyini və cəmiyyətdəki tolerantlığı əks etdirir.

Albomda Gürcüstanda mövcud dini təşkilatlar və icmalar, dini abidələrə dair məlumat və dini liderlər haqqında bioqrafik materiallar yer alıb.

Nəşrdə ölkənin müsəlman icması, din xadimləri və məscidlər barədə də məlumat və fotoşəkillər yer alıb.

Fotoalboma həmçinin Gürcüstanın işğal altında olan ərazilərindəki dini abidələr haqqında da məlumatlar daxil edilib.

Mərasimdə parlament və hökumət üzvləri, beynəlxalq təşkilat və diplomatik korpusun nümayəndələri, dini təşkilatların rəhbərləri və digər qonaqlar iştirak ediblər. Tədbirə həmçinin Bütün Gürcüstan Müsəlmanları İdarəsinin şeyxi Hacı Ramin İgidov və idarənin müftisi Hacı Yasin Əliyev də qatılıb.

## SABİQ PREZİDENT GİORGİ MARQVELAŞVİLİ MÜƏLLİMLİK EDƏCƏK

Gürcüstanın sabiq prezidenti Giorgi Marqvelaşvili pedaqoji fəaliyyətlə məşğul olacaq. Müəllimlik fəaliyyətinə qayıdan 49 yaşlı fəlsəfə doktoru G.Marqvelaşvili Gürcüstan İctimai Elmlər İnstitutunda (GİPA) "siyasət" mövzusunda məruzə oxuyacaq. Məqsəd tələbələrə Gürcüstan siyasətinin nəzəri və təcrübi əsasları, siyasi texnologiyalar barədə məlumat vermək, onlarda siyasi fikri formalaşdırmaqdır.



Məlumat üçün qeyd edək ki, GİPA 1994-cü ildə yaradılıb. İnstitut bakalavr və magistratura pillələri üzrə təhsil verir. İnstitutda ictimai əlaqələr, yerli özünüidarəetmə, beynəlxalq münasibətlər və beynəlxalq hüquq, jurnalistika üzrə PhD doktorluq müdafiə sistemi də var.

G.Marqvelaşvili fasilələrlə – 2000-2006-cı və 2010-2012-ci illərdə GİPA-nın rektoru olub. 2013-cü ildə "Gürcü arzusu" partiyasının dəstəyi ilə prezident seçilib.

## TEXNİKA SATIŞI MAĞAZALARINDA ALICI QITLIĞI YARANIB



Gürcüstandakı texnika satışı ilə məşğul olan mağazalarda alıcı qıtlığı yaranıb. Əvvəllər əhali məişət texnikasını nağd və ya kredit yolu ilə alırdılarsa, indi nəinki nağd, hətta kreditlə mal alanlar da demək olar ki, yox səviyyəsindədir. Buna Gürcüstandakı bankların vətəndaşlara güzəştli kreditlər verməməsi səbəb olub. Hökumət və Milli Bankın bank sistemindəki tənzimləmə əməliyyatlarına başlaması nəticəsində banklar yanvarın 1-dən etibarən vətəndaşlara güzəştli kreditlərin verilməsini məhdudlaşdırıb. Məlumata görə, regionlarda bank kreditləri hesabına texnika alıcılarının sayı 100 faiz azalıb.

Bank sistemindəki tənzimləmələrdən sonra bəzi texnika mağazaları müflisləşmə barədə məhkəməyə müraciət edib. İlk olaraq məhkəməyə Gürcüstan bazarında birincilər sırasında olan "Techno Boom" mağazalar şəbəkəsinin müraciəti daxil olub.

Ekspertlərin fikrincə, bank sistemində aparılan tənzimləmələr bazarlarda ciddi problemlər yaradacaq. Mağazaların ardınca digər biznes strukturları da zəifləməyə başlayacaq. Hökumət həmin mağazalara daxili kreditləşmə hesabına satışı artırmağı məsləhət görür.

## 2018-Cİ İLDƏ 105 HƏKİMİN İŞLƏMƏK HÜQUQU DAYANDIRILIB, 2 HƏKİMİN İSƏ LƏĞV EDİLİB

Tibbi Fəaliyyət üzrə Dövlət Tənzimləmə Agentliyi 2018-ci ilin iş hesabatını yayımlayıb. Hesabata əsasən, 2018-ci il ərzində Peşəkar İnkişaf Şurasının 8 iclası keçirilib. Şura xəstələrə göstərilən tibbi xidmətlə bağlı 162 məsələni (348 həkimi) müzakirə edib. Nəticədə, hesabatda qeyd olunduğuna görə, 342 həkimə peşə məsuliyyəti öhdəliyi qoyulub.

Həmçinin 235 həkimə yazılı xəbərdarlıq edilib. 105 həkimin dövlət sertifiktlarının qüvvədə olması müxtəlif müddətlərə dayandırılıb (54 həkim 1 ay müddətinə, 36 həkim 2 ay, 11 həkim 3 ay, 3 həkim 4 ay, 1 həkim isə 5 ay müddətinə). 2 həkimin dövlət sertifikatı ləğv olunub. 6 həkimə isə peşə məsuliyyəti öhdəliyi qoyulmayıb.

## GÜRCÜSTANDA CİNAYƏTKARLIQ 50%-DƏN ÇOX ARTIB

Ötən il Gürcüstanda 58 mindən çox cinayət faktı qeydə alınıb. Bu barədə Gürcüstanın Daxili İşlər Nazirliyinin statistik məlumatında bildirilib.



Bu göstərici illik müqayisədə 53,94% çoxdur. 2018-ci ildə törədilən cinayətlərin yalnız 20 mininin (34,64%) üstü açılıb.

Ötən il qəsdən adamöldürmə halları da artıb. Hesabat dövründə, ümumilikdə, 75 qəsdən adamöldürmə faktı qeydə alınıb ki, bu da illik müqayisədə 11,94% çoxdur.

2018-ci ildə ailədə zorakılıq halları 2017-ci ilin analoji göstəricisi ilə müqayisədə 122,17% artaraq 4,7 minə çatıb.

Hesabat dövründə Gürcüstanda 1,9 mindən çox oğurluq və 374 soyğunçuluq faktı qeydə alınıb. Oğurluq halları illik müqayisədə 86,54%, soyğunçuluq halları isə 28,52% artıb.

## DÖVLƏT MÜƏSSİSƏLƏRİNDƏ CİNAYƏT GÖSTƏRİCİSİ 28.23% ARTIB

2018-ci ildə Gürcüstanın dövlət strukturlarında cinayət göstəricisi ötən illə müqayisədə 28,23% artıb.

Daxili İşlər Nazirliyinin məlumatına görə, 2018-ci ildə rəsmi cinayətlə bağlı 645 fakt qeydə alınıb, bunun 51-i, yəni 7,91% iş artıq açılıb.

Cinayətin bu qrupu vəzifə səlahiyyətlərindən sui istifadə etməni, vəzifəsinə qarşı biganəlik, saxtakarlıq, rüşvət götürmək və rüşvət verməni nəzərdə tutur.

Statistik olaraq rəsmi cinayətin qeydiyyata düşmüş faktlarından ən çoxu - 388 hal vəzifə səlahiyyətlərindən sui istifadəyə aiddir. DİN-in məlumatına görə, ötən il vəzifə səlahiyyətlərindən sui istifadə ilə bağlı 75, vəzifəyə qarşı biganəliklə bağlı 66, rüşvət götürməklə bağlı 60, saxtakarlıqla bağlı 38 və rüşvət verməklə bağlı 14 fakt qeydə alınıb.

## ƏRZAQ MƏHSULLARI BAHALAŞIB

Yanvar ayı Gürcüstanda inflyasiya 1,3% təşkil edib. Bu barədə Gürcüstanın Milli Statistika İdarəsindən bildirilib. İllik inflyasiya isə 2,2% olub.



Ötən ayda ölkədə ərzaq məhsulları və alkoqolsuz içkilərin qiyməti 3,2%, tərəvəzlərin qiyməti 15,8%, meyvə və üzümün qiyməti 5,8%, süd, pendir və yumurtanın qiyməti 4,7%, çörək və yulafın qiyməti 1,4%, balığın qiyməti isə 1,4% bahalaşıb. Alkoqollu içkilər və tütünün qiymətində 5,8% bahalaşma qeydə alınıb.

İllik inflyasiyaya gəlincə, ərzaq məhsulları və alkoqolsuz içkilərin qiyməti 3,2%, alkoqollu içkilər və tütünün qiyməti 10,1%, səhiyyə xərcləri 3,4%, nəqliyyat xərcləri isə 1,7% artıb.

## GÜRCÜSTAN KÜLƏK ENERJİSİ İSTEHSALINI ARTIRACAQ

Gürcüstan külək elektrik stansiyalarının quraşdırılması ilə bağlı layihə həyata keçirir. 2020-ci ildə ölkədə 270 meqavat gücündə 5 külək elektrik enerjisi stansiyası fəaliyyətə başlayacaq. Bu sözləri Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf nazirinin müavini Natia Turnava deyib.

"Biz külək enerjisi ilə bağlı təhqiqatlar aparmışıq və hesab edirik ki, Gürcüstanda elektrik sisteminin külək enerjisinə zaman-zaman inteqrasiyası üçün imkanlar var", - deyə N.Turnava bildirib. Onun sözlərinə görə, texnologiyanın inkişafı enerji istehsalının qiymətinin azalması baxımından külək enerjisini daha cəlbedici edəcək.

Araşdırmaların nəticələrinə görə, Gürcüstan 2020-ci ildə külək elektrik stansiyalarında 332 meqavat, 2025-ci ildə 665 meqavat, 2030-cu ildə isə 1330 meqavat gücündə elektrik enerjisi ala biləcək.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər Musaoğlu
Yayım Direktoru:
Hacı Bəkiroğlu
Qrafik dizayn:
Elsevər Əhmədov

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.